# Azərbaycanın xarici siyasəti sülhə və sabitliyə xidmət edir




***Tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəaları özünün xarici siyasətində əsas götürən Azərbaycan dövləti müstəqillik dövründə böyük uğurlar qazanmışdır. Amma bu yol o qədər də asan olmamışdır. Qarabağ problemi Azərbaycanı çətin sınaqlara çəkir, bədxahlarımız irəliləyişimizə hər vasitə ilə mane olurdular. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə qısa müddətdə xilaskarlıq missiyasını həyata keçirməsi sayəsində ölkədə möhkəm ictimai-siyasi sabitliyə nail olundu, Qarabağda erməni işğalçılarına tutarlı cavab zərbələri endirildi və atəşkəsə nail olundu. "Əsrin müqaviləsi"nin imzalanması ilə Xəzərin karbohidrogen ehtiyatlarının xarici bazara çıxarılması reallaşdırıldı ki, bütün bunlar Azərbaycanın dövlət müstəqilliyinin dönməz xarakter alması, dünyanın siyasi xəritəsində yerimizin möhkəmlənməsi ilə nəticələndi.***

Ümummilli liderin uzaqgörən siyasəti və idarəetmə təcrübəsi onun "şah əsəri" olan müstəqil Azərbaycan Respublikasını inamla irəli aparırdı. 1995-ci ildə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edildi, dövlət quruculuğu, qanunların qəbulu, daxili və xarici siyasətin təsnifatlaşması həyata keçirildi. Dövlətlər arasında dövlətimiz öz dəst-xətti ilə seçilməyə, millətlər arasında millətimizin səsi daha gur eşidilməyə başladı.

Məlum olduğu kimi, Azərbaycanın yerləşdiyi region geosiyasi, strateji və iqtisadi baxımdan dünyanın siyasi xəritəsində həssas bir ərazi kimi səciyyələnir. Bu baxımdan dövlətimiz həm qonşularla, həm də digər region ölkələri ilə olan münasibətlərində balanslaşdırılmış siyasət yürütməkdədir. Burada bütün dövlətlərlə eyni cür məsafə saxlamaq, ilk olaraq Azərbaycanın milli maraqlarını önə çəkmək əsas götürülür. Heydər Əliyev siyasi məktəbinin ən layiqli davamçısı olan Prezident İlham Əliyev yeni əsrin əvvəllərindən uğurlu diplomatiyası sayəsində ölkəmizin qüdrətini daha da artırmağa, uğurları möhkəmləndirməyə nail olmuşdur.

Xarici siyasətimizdə başlıca məram, əsas amal Azərbaycanın müstəqilliyinə qarşı yönələn bütün təhlükələrin aradan qaldırılması, milli təhlükəsizliyin təmin edilməsi, Ermənistan tərəfindən həyata keçirilən separatizm və işğalçılıq siyasətinin qarşısının alınması, bu məqsədlə bölgədə və dünyada müttəfiqlərin qazanılması idi ki, bu da uğurla reallaşdırılıb. Region dövlətləri ilə maraqların üst-üstə düşməsi təmin edilib. Dünyanın super gücləri olan ABŞ və Rusiyanın bölgədəki ortaq maraqları qədərincə nəzərə alınıb. Sirr deyil ki, bu regionda hər hansı bir gərginliyin və ya münaqişənin olması, ilk növbədə, böyük enerji ehtiyatlarına və layihələrinə malik Azərbaycan üçün arzuolunmaz idi. Odur ki, xarici siyasətimiz zərgər dəqiqliyi ilə elə aparılıb ki, bundan yalnız hərtərəfli mənfəət əldə edə bilək.

*(ardı 4-cü səhifədə)*

# Azərbaycanın xarici siyasəti sülhə və sabitliyə xidmət edir

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycanın xarici siyasət prioritetləri sırasında sivil birgəyaşayış normalarının bərqərar olması, regionda və dünyada sülhü və təhlükəsizliyi təmin edən BMT, ATƏT, NATO kimi beynəlxalq qurumların fəaliyyətində yaxından iştirak etmək durur. Avropa Birliyinə siyasi, iqtisadi və mədəni inteqrasiya da dövlətimizin xarici siyasətində əsas prioritetlərdəndir. Burada məqsəd xalqın təhlükəsiz rifahının təmin edilməsi, xarici kapital və investisiyaların, eləcə də yeni texnologiyaların ölkə iqtisadiyyatına daxil olmasıdır. Həmçinin Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Dünya Ticarət Təşkilatı ilə səmərəli əməkdaşlıqların qurulması da diqqətdədir.

Azərbaycanın xarici siyasətində Dağlıq Qarabağ münaqişəsinin həlli əsas yer tuturdu. Biz bu problemin beynəlxalq hüquq normaları çərçivəsində, sülh yolu ilə həllinə nail olunmasına ümid edirdik. Lakin BMT Təhlükəsizlik Şurasının dörd məlum qətnaməsi yerinə yetirilmir, Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar prosesi məqsədli surətdə uzadılırdı. Nəhayət, ötən il sentyabrın 27-də təmas xəttində erməni işğalçılarının növbəti təxribatından sonra geniş əks-hücum əməliyyatına başlayan Azərbaycanın Silahlı Qüvvələri istila olunmuş torpaqlarını güc yolu ilə geri almağa, ərazi bütövlüyümüzü bərpa etməyə, separatizmin, necə deyərlər, belini qırmağa nail oldu. Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandanımız İlham Əliyev buna qədər elə diplomatik gedişlər etmiş, Azərbaycanın haqq işini elə əsaslandırmışdı ki, ermənilərin güclü təəssübkeşləri olan beynəlxalq qurumlar da, aparıcı dövlətlər də buna qarşı heç bir arqument ortaya qoya bilmədilər. Beləliklə, 44 günlük zəfər yürüşü haqqın, ədalətin təntənəsi ilə başa çatdı.

Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi bütün sahələrdə olduğu kimi, diplomatiya sahəsində də uğurlarımızı tam şərtləndirmişdir. Vətən müharibəsi zamanı dövlətimiz beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub, öz ərazilərini azad etmək hüququndan layiqincə istifadə etmişdir. Nəticədə Ermənistanın işğalına son qoyulmuş və Prezident İlham Əliyev böyük "şahmat oyununda" sülh danışıqları zamanı Azərbaycana edilən təkliflərdən daha çoxunu əldə etmişdir. Qarabağ kimi çox çətin problemi həll etmək, əslində, erməni faşizmini məhv etmək, "böyük Ermənistan" xülyasını puça çıxarmaq, dünyada güclü erməni diasporunun səylərini heç eləmək, ermənilərin aşkar və gizli havadarlarını susdurmaqdır. Cənab İlham Əliyevin Ermənistan üzərində parlaq qələbə əldə etməsi, həm də onun hakimiyyətə gəlişindən sonra apardığı praqmatik, sistemli siyasi kursun, uzaqgörən xarici diplomatiyanın zirvə fəthidir.

Prezident İlham Əliyev həm də sübut etdi ki, Azərbaycan kimi çətin coğrafi mövqedə yerləşən türk-müsəlman dövlətinin taleyi onun liderindən çox asılıdır. Elə buna görə də ölkəmizin başçısı xalqın çox böyük nüfuz və etimadını qazanıb. Tam mənada, tarix yazan bir şəxsiyyətə çevrilən Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın daha da güclənməsinə, ölkəmizin beynəlxalq aləmdə mövqeyinin daha da möhkəmlənməsinə xidmət edir. Dövlət başçısının məqsədyönlü siyasi-diplomatik fəaliyyəti, siyasi-iqtisadi müstəqilliyin möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi mühüm tədbirlər, qəbul etdiyi strateji proqramlar, Heydər Əliyev siyasətinin və ideyalarının ardıcıl və dönməz şəkildə gerçəkləşdirilməsi xətti Azərbaycan xalqının xoşbəxt, firavan sabahına, müstəqilliyimizin əbədiliyinə inamı qat-qat artırmışdır.

Azərbaycanın uğurlarını təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığı ilə bağlıdır. Bu statusuna tam adekvat olaraq möhtərəm ölkə rəhbərimiz həm daxili, həm də xarici siyasət kursunun həyata keçirilməsi prosesində dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi, sistemli təhlil qabiliyyəti, prinsipiallıq və qətiyyət nümayiş etdirir. Siyasi analitiklərin etiraf etdikləri kimi, bir çox dövlət başçısının həsəd apardığı belə nadir şəxsi keyfiyyətlərin daşıyıcısı olan Prezident İlham Əliyev harada çıxış etməsindən və mövqe bildirməsindən asılı olmayaraq, şahmat dili ilə desək, həmişə "ağ fiqurlarla oynayır" və artıq start mərhələsindəcə qarşı tərəf və ya tərəflər üzərində ilkin üstünlüyünü təmin edə bilir. Həmin "siyasi şahmat lövhəsi"ndə cənab İlham Əliyevin rəqibinə "mat" elan etməsi labüddür. Bu zaman probleme sistemli və ardıcıl yanaşma tərzi, səlis və məntiqli ifadə üslubu, auditoriya ilə işləmək və onu ələ almaq qabiliyyəti, bənzərsiz xarizması ilə dövlət başçısı ən qatı siyasi opponentlərini də "tərksilah" etməyə müyəssər ola bilir.

Xarici siyasətimizdə bir çox dövlətlər üçün əsl örnək ola biləcək amil Azərbaycanla Türkiyənin dostluq və qardaşlıq münasibətləridir. Xatırlayırıq ki, 2009-cu ildə ABŞ başda olmaqla Qərb dövlətlərinin təzyiqi nəticəsində Türkiyə–Ermənistan sərhədlərinin açılması prosesi kritik mərhələyə daxil olmuşdu. Hətta iş o yerə gəlib çatmışdı ki, Qərb siyasi dairələri həmin ilin aprelində İstanbulda "Sivilizasiyalar alyansı" adlanan bir tədbir təşkil edərək, orada ABŞ-ın yeni Prezidenti Barak Obama və Dövlət katibi Hillari Klintonun Prezident İlham Əliyev ilə görüşünü keçirməyi hədəfləmişdilər. Məqsəd bu görüş çərçivəsində Azərbaycanın dövlət başçısının məlum məsələdə tutduğu güzəştsiz mövqeyinə təsir edib, onu istədikləri istiqamətdə dəyişməkdən ibarət idi. Cənab İlham Əliyev dünyanın fövqəldövlətinin rəhbəri ilə görüşdən unikal diplomatik manevr hesabına faktiki olaraq imtina etdi və bununla da, əslində, bütün dünyaya göstərdi ki, Azərbaycan öz miqyası etibarilə böyük dövlət olmasa da, sözünün mənası və çəkisi ilə böyük olan bir dövlətdir. Qətiyyətli və iradəli rəhbəri var. Beləcə, son nəticədə, böyük dövlətlər arxasında xalqı dayanan Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsini nəzərə almaq məcburiyyətində qaldılar. Türkiyə–Ermənistan sərhədləri isə bugünə qədər bağlıdır.

Cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın zamanın sınağından şərəflə çıxmış ortaq mövqeyinə dair çoxsaylı misallar çəkmək olar. Elə ötən ilin ayyarımlıq zəfər yürüşündə qazanılan möhtəşəm qələbədə türkiyəli qardaşlarımızın göstərdiyi yüksək mənəvi dəstək, Qarabağda bərpa və quruculuq proseslərində Türkiyə şirkətlərinin fəal iştirakı, Şuşada Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması, bugünlərdə cənab Rəcəb Tayyib Ərdoğanın təyyarəsinin Füzulidə yaradılmış beynəlxalq hava limanına ilk eniş etməsi və səfər zamanı reallaşdırılan çox önəmnli layihələr böyük siyasi-diplomatik məna daşıyır.

Bu gün Azərbaycan bir sıra mötəbər beynəlxalq qurunmlarla sıx əməkdaşlıq edir. On il əvvəl – 2011-ci il oktyabrın 24-də, müstəqilliyinin 20-ci ilində Azərbaycan Respublikası ilk dəfə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Rəqibləri Macarıstan və Sloveniyanı üstələyən ölkəmiz 155 səs toplayaraq, növbəti iki il ərzində Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlük hüququ qazanmışdır. Bu, Azərbaycan xarici siyasətinin dünyada artan nüfuzunun göstəricisi idi. Ölkəmizin xarici siyasət uğurları sırasında onun Qoşulmama Hərəkatında iştirakını xüsusi qeyd etmək lazımdır. Bildiyimiz kimi, avqustun 11-də Prezident İlham Əliyev Serbiyanın paytaxtı Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantının rəsmi açılış hissəsinə sədrlik edib. Dövlət başçısı tədbirdə videoformatda çıxış edib və Azərbaycanın QH-yə sədrliyi dövründəki prioritetlərini açıqlayıb. Azərbaycan Prezidentinin çıxışı üzv ölkələrin dövlət xadimləri tərəfindən böyük maraqla dinlənilib. Etiraf olunub ki, hərəkat son dövrdə ən qüdrətli çağını məhz Prezident İlham Əliyevin sədrliyi dönəmində keçirir. Hərəkata sədrliyi dövründə Azərbaycanın Qoşulmama Hərəkatına qlobal fəaliyyət planı hazırlaması, COVID-19 pandemiyası ilə bağlı vəziyyətə cəld və adekvat reaksiya göstərməsi, ona qarşı qlobal səylərin səfərbər edilməsi istiqamətində beynəlxalq təşəbbüslər irəli sürməsi məhz Prezident İlham Əliyevin nüfuzunun yüksəlməsi istiqamətində uğuru kimi səciyyələndirilir.

Azərbaycanın 2019-cu ildən sədrliyi dövründə Qoşulmama Hərəkatının nüfuzunun artması, beynəlxalq arenada söz sahibinə çevrilməsi hərəkata üzv ölkələrin diqqətindən qaçmayıb. Məhz bu səbəbdəndir ki, QH-yə üzv dövlətlər yekdilliklə Azərbaycanın sədrlik müddətinin daha bir il – 2023-cü ilin sonuna qədər uzadılması barədə qərar qəbul ediblər. Bu, həm də Prezident İlham Əliyevin dünyadakı nüfuzunun daha bir göstəricisi, QH üzvləri tərəfindən Azərbaycan Prezidentinin qlobal liderlik səylərinə verilən yüksək qiymətdir.

Cənab İlham Əliyevin xarici siyasət xətti bir çoxları üçün layiqli nümunədir. Bu günlərdə möhtərəm Prezidentimiz Ruminiyanın və Qırğız Respublikasının Azərbaycanda yeni təyin olunmuş səfirlərinin etimadnamələrini qəbul edib. Qeyd edilib ki, ikitərəfli münasibətlərin intensivləşəcəyinə ümid böyükdür. Mövcud əməkdaşlıq potensialının ötən illərdə tam həcmdə reallaşdırılmadığını söyləyən Prezident bildirib ki, bu amilə diqqət artırılmalı, qarşılıqlı münasibətlərimizin inkişafı üçün daha fəal səylər göstərilməlidir. Həm ikitərəfli münasibətlər, həm də Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı çərçivəsində perspektivlərin daha yaxşı olacağına inamını ifadə edib. "Bizim münasibətlərimiz həm ikitərəfli formatı, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı formatını əhatə edir. Buna görə də burada perspektivlər çoxdur. Fikrimcə, iqtisadi-ticari sahədə və energetika sferasında əməkdaşlıq sahəsində, həm də nəqliyyat sahəsində imkanlar çoxdur. Ona görə ki, bildiyiniz kimi, Azərbaycan ölkənin Avrasiyanın nəqliyyat-logistika mərkəzinə çevrilməsi üçün böyük səy göstərir və bu istiqamətdə böyük işlər görülüb. Lakin çox şey ikitərəfli əlaqələrdən asılıdır. Odur ki, bizim mövcud olan və yaradılmasını planlaşdırdığımız infrastruktur yükgöndərənlər üçün alternativ imkanlar yaradacaq. Beləliklə, bu sahədə də əməkdaşlığa ümid edirik. Lakin bütün başqa istiqamətlər üzrə də biz sizin ölkənizlə əməkdaşlıq üçün həmişə açıq olmuşuq. Zənnimcə, biz bunu qarşılıqlı maraqlar əsasında davam etdirəcəyik".

Bəli, bu gün qlobal lider statusuna yüksəlmiş möhtərəm Prezidentimiz İlham Əliyev beynəlxalq aləmdə haqq və ədalət carçısı olaraq tanınır. Qalib millətin müzəffər rəhbəri bütün beynəlxalq müstəvilərdə sözünü inamla deyir, sülhpərvər siyasət xətti yürüdür və eyni zamanda, dinc yanaşı yaşamaq prinsipinə sadiqlik örnəyi nümayiş etdirir.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.- 31 oktyabr.- S.1;4.